gizli şifrələrinin qırılıb kredit kartları üzərində bir sıra əməliyyatların aparılması riskinə əsaslanaraq elektron mühitdə mübadilə etməkdən qaçırlar, hətta bu səbəblə internet yardımı ilə alış-verişə çıxan müştərilərin böyük əksəriyyəti əməliyyatlarını başa vurmaqdan imtina edirlər. Beynəlxalq e-ticarətdə verginin toplanması, ödəmə vasitələrinin inkişaf etdirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi, hətta elektron ticarətə uyğun bir formaya gətirilməsi zəruridir. [4].

Bu səbəbləri istifadəçi, müştəri və xidməti təqdim edən müəssisə, istifadə edilən mühit, yəni internetdən qaynaqlanan səbəblər olaraq iki müxtəlif qrupda ayıraraq qeyd etmək mümkündür. Məsələn, müştəri üçün kredit kartı ilə internet mühitində satın almağın yaratdığı inamsızlıq, kompüterdən istifadədə naşılıq, virtual mühitdə məhsul və xidmətin konkret xüsusiyyətlərinin minimuma enməsi kimi səbəblər var. İnternetdən və işlənmədən qaynaqlanan səbəblər arasında isə kifayət qədər alternativ rəqəmin olmaması, məlumatların yenilənmiş olmaması, məlumatların çox az və ya çox olması kimi səbəblər var. Bu səbəblərin yenilənmə problemləri kimi bəziləri müəssisə tərəfindən düzəldilə bilər, lakin şəbəkə əlaqələrinin ləngliyi kimi texniki məsələlərin həlli müəssisənin nəzarətində deyil. E-ticarəti genişləndirmək istəyən müəssisələr bu səbəblərdən apardıqları monitorinqlər zamanı sadalanan faktları aradan qaldırmağa çalışmalıdırlar.

***Ədəbiyyat:***

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”. “Azərbaycan” qəzeti. Bakı, 17 dekabr. 2016-cı il.
2. “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnolojiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”. “Azərbaycan” qəzeti. Bakı, 6 dekabr. 2016-cı il.
3. “Elektron Azərbaycan” Dövlət Proqramları (2005-2008-ci illər və 2010-2012-ci illər), (elektron resurs) Bakı, 2012
4. Model yerbook of tourism statistics. Madrid. WTO. 1985, 1996, 2000.

## DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

*Kərimov S.M.*
*Elmi rəhbər: Səmədova O.M., dosent, i.f.d.*
*Mingəçevir Dövlət Universiteti*

İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da innovasiya siyasətinin həyata keçirilməsinə dövlət səviyyəsində çox böyük əhəmiyyət verilir. Nəzərə almaq lazımdır ki, müasir innovasya siyasəti dövlətin sosial – iqtisadi siyasətinin tərkib hissəsi olmaqla hakimiyyət orqanlarının elm, texnika və elmi-texniki nəaliyyətlərinin həyata kecirilməsi sahəsində apardığı fəaliyyətin məqsədini, istiqamət və formalarını müəyyənləşdirir.

Dövlətin innovasiya siyasəti ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi və sosial tələbatların ən dolğun şəkildə ödənilməsi məqsədilə innovasiya fəaliyyətinin səmərəliliyinin artırılmasına və nəticələrindən geniş istifadə edilməsinə yönəlmiş tədbirlər kompleksidir. O, üç mərhələni – yəni innovasiya fəaliyyətinin inkişafı üçün

elmi əsaslandırılmış konsepsiyaların hazırlanmasını; innovasiyaya dövlət dəstəyinin əsas istiqamətlərinin müəyyən edilməsini; innovasiya fəallığının artırılmasına yönəlmiş məqsədlərə nail olmaq üçün praktiki tədbirlərin həyata keçirilməsini əhatə edir.

İlk növbədə, dünya bazarında yüksək rəqabət qabiliyyətinə malik ola bilən və qarşıdakı dövrdə iqtisadi artımın, iqtisadiyyatın daha da modernləşdirilməsinin və şaxələndirilməsinin mühərrikinə çevrilə bilən sənaye istehsalının sürətli inkişafı və məqsədyönlü dəstəyini təmin etmək lazımdır.

İnnovasiya siyasətində iki məsələ ayırd edilimiəlidir lazımdır - strateji və taktiki. Dövlət innovasiya siyasətinin strategiyası ölkənin sosial-iqtisadi və ictimai-siyasi inkişafının uzunmüddətli konsepsiyaları əsasında formalaşır. İnnovasiya siyasəti strategiyasının seçimi innovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin əsas istiqamətlərinin, sosial-iqtisadi məqsədlərə uyğun olaraq innovativ inkişafın əsas məqsədlərinin müəyyən edilməsini, elmi potensialın inkişafı və istifadəsi üsullarının qəbulunu nəzərdə tutur. Taktika isə cari məqsədlərin və bu məqsədlərə ən yüksək səmərəliliklə nail olunmasını təmin edən konkret fəaliyyətləri özündə ehtiva edir. Taktiki vasitələr tədqiqat və layihə işlərinin maliyyələşdirilməsi, maddi-texniki və informasiya təminatı, kadr seçimi, innovativ inkişaf fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi və təşkilati şəraitin yaradılmasıdır.

Dövlət innovasiya siyasətinin səmərəliliyi, onun formalaşdırılması üsulları və innovasiyaya dəstək verilməsinin əsas istiqamətləri müəyyən dərəcədə elmi-texniki liderlikdə özünü göstərir. Elmi-texniki liderlik dövlətin innovasiya siyasətinin formalaşdırılması və həyata keçirilməsində seçilmiş strateji kursun və taktiki fəaliyyətin düzgünlüyünün sübutudur. Elmi-texniki liderlik tədqiqat sahələrinin düzgün seçilməsinin nəticəsidir. Düzgün seçim inkişafda prioritet olan sahələrdə liderliyə səbəb olmalıdır.

Dövlətin innovasiya siyasəti əsasən innovasiya proseslərinin həyata keçirilməsi üçün əlverişli iqtisadi, təşkilati, hüquqi, informasiya və sosial-psixoloji şəraitin yaradılmasına yönəldilməlidir. Bu şərtlər innovasiya siyasətinin formalaşdırılmasının, innovasiyaya dövlət dəstəyinin əsas istiqamətlərini müəyyən edir.

İnnovasiyaya dövlət dəstəyinin əsas istiqamətlərinə aşağıdakılar daxildir: 1) elmi tədqiqatların, ilk növbədə, perspektivli sahələr üzrə inkişafının təşviqi; 2) innovasiya fəaliyyətinin kadr təminatı; 3) innovasiya fəallığının artırılmasına yönəlmiş müxtəlif proqramların hazırlanmasına köməklik; 4) bir çox yeniliklərə ilkin tələbatın təmin edilməsi, sonradan bazarda (daxili və xarici) geniş yayılmasını təmin edən innovativ inkişaflar üçün müqavilələr şəklində dövlət sifarişlərinin formalaşdırılması; 5) fiskal və digər dövlət tənzimləmə vasitələrinin tətbiqi; 6) elmin müxtəlif sahələri arasında səmərəli qarşılıqlı əlaqənin təşkilində və sənaye firmaları ilə ali təhsil müəssisələri arasında innovativ inkişaflar sahəsində əməkdaşlığın stimullaşdırılmasında dövlətin vasitəçi kimi iştirakı; 7) regionlarda innovasiya fəaliyyətinin əlaqələndirilməsi; 8) innovasiya fəaliyyəti üçün hüquqi bazanın yaradılması; 9) innovasiya prosesləri sahəsində beynəlxalq münasibətlərin tənzimlənməsi.

Son iki sahə innovasiya fəaliyyətinin dəstəklənməsində dövlətin iştirak dərəcəsi baxımından vacibdir. Belə ki, innovasiya proseslərinin hüquqi

tənzimlənməsi dövlətin müstəsna səlahiyyətindədir və innovasiya prosesləri sahəsində beynəlxalq münasibətlərin tənzimlənməsi də əsasən dövlət tərəfindən həyata keçirilir. Bazar iqtisadiyyatı və rəqabət mühiti sahibkarlıq subyektlərindən istehsal fəaliyyətlərinə daim yeni innovativ elementlər daxil etməyi tələb edir.

Milli iqtisadiyyatda innovasiyaya ehtiyac durmadan artır, lakin sahibkarlıq subyektləri müxtəlif fəaliyyət dərəcələri ilə innovasiya fəaliyyətinin maliyyə təminatında iştirak edirlər. Azərbaycanda innovasiya fəaliyyətini maliyyələşdirmək üçün investisiyaların əsas təchizatçısı hələ də dövlətdir. İqtisadiyyatın modernləşdirilməsinin hazırkı mərhələsi innovativ məhsulların yaradıcılarının ehtiyacları üçün investisiyaların səfərbər edilməsinin keyfiyyətcə yeni mexanizmini və milli innovasiya sisteminin subyektlərinin maliyyə təminatı metodologiyasına yenidən baxılmasını tələb edir. İnnovativ iqtisadi inkişaf yolunda innovativ tipli iqtisadiyyatın qurulması məqsədinə nail olmaq üçün təkcə elmi-tədqiqat və təkmilləşdirmə ilə məşğul olan qurumların mövcudluğu kifayət deyil. İnnovasiya fəaliyyəti üçün kifayət qədər güclü maliyyə bazası lazımdır ki, bu da dövlət maliyyələşdirməsindən əlavə, fəaliyyəti innovativ elementlərin vaxtında istehsala tətbiqindən birbaşa asılı olan korporativ və özəl investorların maliyyə dəstəyi ilə doldurulmalıdır.

***Ədəbiyyat:***

1. Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil, 2013.

2. Abbaszadə M. Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu. Elm və İnnovativ Texnologiyalar Jurnalı, № 14, 2020.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi. URL: https://www.economy.gov.az/

## DÖVLƏTİN İNVESTİSİYA VƏ İNNOVASİYA SİYASƏTİNİN FORMALAŞMASININ MÜASİR İSTİQAMƏTLƏRİ

*Mustafayeva G.X.*
*Elmi rəhbər: Səmədova O.M., dosent, i.f.d.*
*Mingəçevir Dövlət Universiteti*

Müasir şəraitdə dövlət investisiya siyasəti kapital qoyuluşlarının əhəmiyyətli hissəsinin özünümaliyyələşdirmə prinsiplərinə, maddi-texniki resurslar bazarlarının mexanizmlərinin və infrastrukturunun, investisiya prosesinin iştirakçıları arasında səmərli münasibətlər sistemlərinin inkişafı prinsiplərinə əsaslanmalıdır.

Bütövlükdə dövlətin investisiya və iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından dövlət investisiya siyasətinin səmərəliliyinin artırılması aşağıdakı prinsiplərin həyata keçirilməsi ilə mümkündür.

- investisiyaların qeyri-kommersiya risklərindən sığortalanması üçün şəraitin yaradılması.
- investisiya prosesinin qeyri-mərkəzləşdirilməsi;
- müəssisələrin investisiya layihələrinin maliyyələşdirilməsində daxili